# Qərbi azərbaycanlılar öz yurdlarına qayıtmaqda israrlıdırlar

**Avqustun 8-dən dünya gündəmini zəbt edən ABŞ, Azərbaycan və Ermənistan liderlərinin üçtərəfli görüşü, Azərbaycan-Ermənistan arasında davam edən 35 illik müharibə və münaqişələrdən, təkrar-təkrar aparılan, lakin müsbət nəticə verməyən görüşlərdən, danışıqlardan sonra sülh müqaviləsinin mətninin razılaşdırılması, ölkəmizin bir hissəsi olan Naxçıvanla Azərbaycanı birləşdirəcək və dünya iqtisadiyyatına böyük mənfəətlər gətirəcək Zəngəzur dəhlizinin (TRIIP) açılacağı barədə qərara gəlinməsi dünya hərb və sülh tarixinə qızıl hərflərlə yazılmışdır.**

Sülh razılaşması Cənubi Qafqaz xalqları arasında məmnunluq və qürur doğurmuşdur. Bu tarixi görüş zamanı Prezident İlham Əliyevin regionun firavanlığına və sabitliyinə yüksək səviyyədə sadiqlik nümayiş etdirməsini, sülhü nifaqdan üstün tutmaq cəsarətini analitiklər, politoloqlar, dövlət başçıları və siyasətçilər təqdirəlayiq hal hesab edirlər.

Vaşinqtonda keçirilən ABŞ, Azərbaycan və Ermənistan liderlərinin üçtərəfli görüşündə Donald Trampın İlham Əliyevə xitabən "Siz böyük lidersiniz" ifadəsini işlətməsi bir daha təsdiq edir ki, Azərbaycan Prezidenti dünyanın qlobal liderlərindən biri kimi qəbul olunur.

Xalqımızı sevindirən odur ki, bu fikirlər həm də Azərbaycana, onun müdrik rəhbərinə verilən ən yüksək dəyər və qiymətdir. Bunun təsdiqini dünyanın kütləvi informasiya vasitələrində dərc edilən mənşət materiallardan, radio və televiziyada, internetdə və sosial şəbəkələrdə kütləvi halda tirajlanan rəylərdən, qələbə münasibətilə dövlət başçımızın ünvanına göndərilən təbrik teleqramları və məktublardan da görmək mümkündür.

Xəbər verildiyi kimi, avqustun 8-də Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə Azərbaycan-Ermənistan normallaşma prosesini irəli aparan Birgə Bəyannamə imzalayıblar. İki ölkə arasında sülh sazişi paraflanıb. Bütün bunları dünyanın tərəqqipərvər insanları, o cümlədən vaxtilə dünyanın müxtəlif ölkələrinə pənah aparmış qərbi azərbaycanlılar da rəğbətlə qarşılayıblar. Bəlkə də bu coşqudan yaranan bir haldır ki, bu günlərdə bəzi internet resurslarında belə bir xəbər yayıldı ki, guya bundan sonra Qərbi Azərbaycan İcması öz fəaliyyətini davam etdirməyəcək. Buna inananlardan çox tərəddüd edənlər də oldu.

Bu barədə Qərbi Azərbaycan İcmasının sədri, deputat Əziz Ələkbərli mətbuata açıqlamasında demişdir: "Möhtərəm cənab Prezidentin Ermənistanın baş naziri ilə Vaşinqtonda imzaladığı Birgə Bəyannamə dövlətlərarası münasibətləri tənzimləyən bir sənəddir. İcmanın fəaliyyəti isə beynəlxalq konvensiyalarda təsbit olunmuş insan hüquqlarının, qayıdış hüququnun təmin edilməsinə yönəlmiş ictimai fəaliyyətdir. Bu mənada, icmanın fəaliyyətinin dövlətlərarası münasibətlərlə, sülh sazişi ilə birbaşa əlaqəsi yoxdur".

Məsələyə geniş şəkildə münasibət bildirən icma rəhbəri daha sonra vurğulamışdır: "Bizim fəaliyyətimiz dinc yolla öz dədə-baba yurdlarımıza qayıtmaqdan ibarətdir. İcma heç vaxt Ermənistanın suverenliyinə, ərazi bütövlüyünə qarşı çıxmayıb. Cənab Prezidentin vurğuladığı kimi, biz Qərbi Azərbaycana tanklarla yox, maşınlarla qayıdacağıq.

Qərbi Azərbaycan İcması Azərbaycan-Ermənistan normallaşma prosesini alqışlayır və bu istiqamətdə cənab Prezidentin səylərini dəstəkləyir. Ümid edirik ki, sülh gündəliyinin irəliləməsi biz qərbi azərbaycanlıların dinc yolla öz yurdlarımıza dönməsinə şərait yaradacaq. Qərbi Azərbaycan İcması bu sahədə fəaliyyətini bundan sonra da davam etdirəcək".

Həqiqət və reallıq ondan ibarətdir ki, qərbi azərbaycanlılar qanuni haqlarını tələb edirlər. Bu barədə müxbirimizə geniş açıqlama verən Qərbi Azərbaycan İcması Ağsaqqallar Şurasının sədr müavini, Əməkdar elm xadimi Vaqif Şadlinski demişdir:

- Artıq bütün dünya ictimaiyyəti yaxşı bilir ki, vaxtilə indiki Ermənistan respublikası adlandırılan ərazilərdən ötən əsrin əvvəllərində terrorçu daşnaklar vasitəsilə hədə-qorxu və zorla köçürülən, eləcə də müxtəlif zaman kəsiyində keçmiş ittifaq rəhbərliyi tərəfindən öz dədə-baba yurdlarından məcburi deportasiya edilmiş insanlar öz evinə, elinə-obasına qayıtmaqda qəti şəkildə israrlıdırlar. Soydaşlarımızın Qərbi Azərbaycandan kütləvi deportasiyasına dair əsl hüquqi-siyasi qiyməti xalqımızın Ümummilli Lideri Heydər Əliyev vermişdir. Ulu Öndərin "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR-i ərazisindən, tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" 1997-ci il 18 dekabr tarixli fərmanı böyük elmi-siyasi, tarixi əhəmiyyətə malik sənəddir. Sənəddə açıq və aydın şəkildə qeyd edilir ki, keçmiş SSRİ Nazirlər Sovetinin müvafiq qərarlarına əsasən, Azərbaycan xalqına qarşı növbəti tarixi cinayət aktı olub. Təkcə bu cinayət aktının həyata keçirilməsi nəticəsində 150 mindən çox azərbaycanlı kütləvi şəkildə və zorakılıqla sürgünə məruz qalıb.

Keçən əsrin əvvəllərindən başlayaraq, Qərbi Azərbaycandan, yəni bölşeviklərin qeyri-qanuni yaratdığı indiki Ermənistan ərazilərindən yüz minlərlə azərbaycanlının zorla çıxarılması və mərhələli şəkildə etnik təmizləməyə məruz qalması tarixə də, ictimaiyyətə də yaxşı məlumdur. İlk deportasiya 1905-1920-ci illərdə olub. Qərbi azərbaycanlıların öz torpaqlarını tərk etməyə məcbur edilmələrinin ikinci mərhələsi isə 1948-1953-cü illərdə baş verib. Nəinki, İrəvan ermənilər, eləcə də Qarabağ erməniləri Cənubi Qafqaza köçürüldükləri gündən Rusiyanın dəstəyi ilə gah gizlin, gah da dövlət səviyyəsində kəndlərimizi, qəsəbələrimizi, şəhərlərimizi işğal ediblər. "Dənizdən-dənizə" xülyası ilə yaşayan ermənilər əlavə ərazilər işğal etmək məqsədilə qərbi azərbaycanlıları min illərlə yaşadıqları yurd-yuvalarından kütləvi şəkildə qovublar, mallarını, ev əşyalarını qarət ediblər və sairə.

Qərbi Azərbaycan İcması 1988-1991-ci illərdə indiki Ermənistandan qovulmuş 50 mindən çox ailənin yarıdan çoxuna dəymiş ziyanı hesablamış, hazırda bu iş davam etdirilir. Artıq 130 kəndin siyahısı tamamlanıb. Təşkilat Qərbi Azərbaycanda tarixi və mədəni irsimizin bütün nümunələrinin dəqiq siyahısının hazırlanması üzərində də ciddi iş aparır. Sovet dönəmində erməni daşnakların məqsədli şəkildə mədəniyyətimizin, zəngin irsimizin, memarlıq abidələrimizin ən nəfis nümunələrinin guya ermənilərə mənsub olduğunu iddia etməyə çalışmaları da unudulmayıb. Bunlar tarixi Azərbaycan torpaqlarının dəmək olar ki, bütün hissələrində törədilib.

Məcburi deportasiyaların və zorla qovulmanın sonuncusu 1988-1990-cı illəri əhatə edərək Ermənistan ərazisində bir nəfər belə azərbaycanlı qalmamışdır. Bu ərazilərdə xalqımızın qədim tarixi-mədəni, dini-mənəvi irsi, o cümlədən abidələr, məscidlər, qəbiristanlıqlar məhv edilmişdir. Tarixi ədalət bu insanların öz vətənlərinə dinc və təhlükəsiz qayıdışının təmin olunmasını tələb edir. Əslində, bu tələb çox haqlıdır, ədalətlidir və beynəlxalq hüquq prinsiplərinə, tarixi gerçəkliklərə söykənir.

Azərbaycan Prezidenti İlham Əliyev qərbi azərbaycanlıların indiki Ermənistana, öz ata-baba yurdlarına qayıtması ilə bağlı ardıcıl siyasət yeridir. İstər xarici ölkələrdə çıxışlarında, istərsə respublikamızda dövlət başçıları və ictimaiyyət nümayəndələri ilə görüşlərində dəfələrlə bəyan edib: "...Qərbi azərbaycanlıların öz tarixi dədə-baba torpaqlarına qayıtmaq hüququ tanınmalıdır. Azərbaycanlıların vaxtilə deportasiya edildikləri tarixi yurdlarına qayıtmaq haqları var və bunu heç kəs inkar edə bilməz".

Ötən ay, konkret desək, iyulun 3-4 tarixlərində Qarabağda Xankəndi şəhərində keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 17-ci Zirvə görüşündə Prezident İlham Əliyev qərbi azərbaycanlıların qayıdışı məsələsini bir daha qaldırdı və bu məsələ sammitin yekunlarına dair Xankəndi Kommunikesində əks etdirildi. Sözügedən mötəbər formatda Qərbi Azərbaycan məsələsinin qaldırılması soydaşlarımızın sülh yolu ilə, təhlükəsiz və ləyaqətli şəkildə yurdlarına qayıdışına beynəlxalq dəstəyin möhkəmləndirilməsi baxımından böyük əhəmiyyət kəsb edir.

Prezidentin bu vacib məsələni beynəlxalq səviyyədə gündəmə gətirməsi Ermənistana və onun havadarlarına da ciddi bir mesajdır: "Qərbi azərbaycanlıların beynəlxalq hüquq çərçivəsində öz tarixi yurdlarına qayıtması tələbinə dünya ictimaiyyəti ciddi dəstək verməlidir. Soydaşlarımızın Ermənistan tərəfindən tapdanmış hüquqlarının bərpa edilməsinə beynəlxalq aləm, beynəlxalq təşkilatlar biganə qalmamalıdır. Ermənistandan qovulmuş azərbaycanlıların tarixi yurdlarına qayıdışının təmin olunması onların beynəlxalq hüquq çərçivəsində müəyyənləşmiş haqlarıdır. Prezidentin də müraciəti beynəlxalq aləmə və Ermənistana bir mesajdır ki, azərbaycanlıların geri qayıdış hüququ təmin edilməlidir. Hesab edirəm ki, Ermənistan və onun havadarları bu qayıdışın əleyhinə olmaqdansa, o insanların haqqını tanımalıdır".

Azərbaycan Prezidentinin bu istiqamətdə tapşırıq və tövsiyələrini özlərinin proqram sənədi kimi qəbul edən icma rəhbərliyi və üzvləri bu sahədə uğurlarını artırmağa çalışırlar. Yaradıcısı Prezident İlham Əliyev olan Qərbi Azərbaycan İcmasının başlıca tələbi ondan ibarətdir ki, Ermənistan azərbaycanlıların öz dədə-baba yurdlarına qayıtmaq hüququna hörmətlə yanaşsın, bölgədə sabitliyin, barışığın və insan hüquqlarının bərqərar olmasına ləyaqətli şərait yaratsın.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 19 avqust (№ 173).- S.4.